# Onlar bizim sabahımız




Vətənpərvər oğullar vətənpərvər, milli-mənəviyyatı zəngin olan ailələ yetişər... Ağac torpaqdan rişə aldığı kimi... Onlar özləri bilmədən torpağa, elə, xalqa, ailəyə-vətənə bağlı bir övlad kimi yetkinləşərlər.

Onlara kim isə vətən sevgisini, xalqa məhəbbəti diktə etməz. Onlar bu sevgini ən ümdə amal kimi körpə qəlblərində yaşam tərzlərinin "yaşıl işığı" seçərlər. Mən belə körpələri vətəndaşlığın simvolu adlandırardım.

Şəhid məzarını ziyarətə getmək, ailələri ilə görüşmək üçün Mıxlıqovaq kəndinə gedirdim. "Sovet dönəmindən" sonra demək olar ki, bu kənddə olmamışdım. Taksidən endikdən sonra ilk məktəbə baş çəkəcəyimi qərarlaşdırdım, ünvanları-şəhid və qazilərin evlərinin yerlərini oradan daha asan öyrənəcəyimi düşündüm. Məktəbin qapısına yaxın şəhidlərin xatirə kompleksini gördüm. 3 məktəblinin onlara baxaraq maraqla danışdığını gördüm və onlardan kəndin yeni şəhidlərinin evlərinin yerini soruşdum.

Uşaqlar-1 qız, 2 oğlan mənə evləri tanıdacaqlarını dedilər.

O gün 4 şəhid, 1 qazi ailəsini ziyarət etdik. 4-cü sinif şagirdi Elmar Qəzənfər oğlu Rüstəmov isə bir bələdçi kimi mənimlə birgə ziyarətçi oldu. Elmar kəndinin qəhrəmanlarını tanıyır, onları tanıdırdı... Bu isə tək mənim deyil hər birimizin qürur hissi! Bu günün sabahkı qəhrəmanlığı və möhkəm, danılmaz ümüdgahı! Bu isə onun böyüdüyü ailənin və ona dərs deyən müəllimlərin ən mənalı "əsəridir!"

Onu da qeyd edək ki, Elmar Qəzənfər oğlu Rüstəmov Mıxlıqovaq kənd orta məktəbinin artıq 5-ci sinif şagirdidir.

* * *

Aqşin Ənvərlinin məzarını ziyarət edirdik. Şəhidimin anası Dilruba Səmədova da bizimlə idi. Kənd qəbiristanlığında uzaqdan seçilirdi "Şəhid məzarı". Biz ziyarətimizi başa vurub qayıdarkən qəbiristanlığın çöl qapısında 10-12 yaş civarında bir məktəbli oğlanın əlində gül gəldiyini gördük. Onunla söhbət əsnasında öyrəndik ki, o-Namiq Alcanlı şəhidimizi ziyarət üçün gəlir. Qəlbim dağa döndü. Uşaqdakı vətən sevgisinin, qəhrəmanlarımıza hörmət-izzətin gücünə bax. Xırxatala kənd mərkəzindən xeyli uzaq bir yerdə olan qəbiristanlığa tək-tənha gəlib...




Kənd yolu ilə rayona tərəf gəldikdə bir dəstə uşağın əllərində gülçiçək getdiyini gördük. Onları ötən sonra dayandıq və izlədik. Onlar da qəbiristanlığa tərəf döndülər. Bir qədər gözləyəndən sonra onları təqib etdik.

Onlar 10 nəfər idi, körpə qəlblərində vətən sevgisi güclü olan, milli dəyərlərimizə qiymət verən, şəhidlərimizi-yeni tarix yazanların sabahkı davamçıları, vətənpərvərləri.

Onlar-Namiq Alcanlı, Namiq Şahbazi, Kənan Umarlı, Sevinc Muradxanlı, Onur Məmmədov, Baloğlan Məhəmmədov, Sənəm Eyvazova, Könül Abdukərimova, Xədicə Cəlilova, Nuray Rəşidli Xırxatala kənd I Qarabağ müharibəsində şəhid olmuş Murad Əlibəyov adına orta məktəbin 8-ci sinif şagirdləridirlər. İçdən gələn bir istək, bir müqəddəs borc kimi qəhrəmanlarımızın timsalında şəhid Aqşin Ənvərlinin məzarını ziyarət edirdilər.

* * *

Rayonumuzda keçirilən bütün tədbirlərdə, bütün şəhid məzarlarının, onların ev muzeylərinin ziyarətlərində uzun hörüklü, milli əsgər geyimli bir balaca qızla rastlaşırıq. Onun vətən, torpaq, qəhrəmanlıq və şəhidlərimiz haqda oxuduğu şeirlər hər kəsi riqqətə gətirir. O şeirləri dinləyən kəs göz yaşlarını silər, gah başını dik tutaraq qürurlu dayanar, gah da yoxdan var olan azacıq sevinc hissi keçirər. Əlbəttə bu balaca Aylanın yüksək pafosla, bəzən də həzin səslə oxuduğu şeir və bayatıların qəlblərə sirayətindən irəli gəlir.



Bu 6 yaşlı körpə - Ayla Ruslan qızı Abdurahmanova Vəndam 1 saylı tam orta məktəbin 1-ci sinif şagirdidir. Vətənpərvər balaca hər kəsin sevimlisidir.

**BİBİXANIM.**

# Qarabağın incisi - Şuşa

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, 2022-ci ilin "Şuşa ili" elan edilməsi ilə əlaqədar Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə Qəbələdə fəaliyyət göstərən Şuşa rayon ümumi orta məktəbdə "Qarabağın incisi Şuşa" adlı tədbirdə öncə torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərdə şəhadətə yüksəlmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Tədbiri giriş sözü ilə muzeyin direktoru Bəxtiyar Vəliyev açaraq Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun hünər və rəşadəti ilə 44 günlük müharibədə əldə olunan Zəfərimizdən bəhs etmişdir. Çıxış edənlər Vətən müharibəsində əsgərlərimizin qəhrəmanlıqlarından, Şuşanın işğaldan azad edilməsi, xalq hakimiyyət birliyinin uğurumuza böyük təsirindən danışmış, Tarix-Diyarşünaslıq muzeyinin fondunda mühafizə olunan eksponatların tarixi haqqında məlumat vermişlər. Sonda şagirdlərə muzeyin bukletləri paylanılmışdır.



# Albaniyada əkinçilik mədəniyyəti

**(Əvvəli ötən sayımızda)**

Qarlı zirvəsi olan dağların əhatəsində insanların yüz illərdir ki, müqəddəsliyinə tapınıb pənah gətirdiyi bir məkan var. Bu, dəniz səviyyəsindən 3629 metr yüksəklikdə yerləşən Babadağ və ya Həzrət Baba ziyarətgahıdır. Həzrət Baba İsmayıllı rayonunun Lahıc kəndindədir. Ziyarətgahın yaranması ilə bağlı xalq arasında maraqlı rəvayətlər dolaşır. Rəvayətlərdən birində deyilir ki, Həzrət Baba Allahın ən çox sevdiyi qullarından biri olub. O, bu dağlarda çobanlıq edirmiş. Həzrət Baba öz ögey anasını çox sevirmiş. Bir dəfə zəmidə bir buğda dənəsi onun ayağı altında qalıb. Həzrət Baba isə çox kədərlənib. O, ögey anası ilə Babadağına çıxıb və Allahdan bağışlanmağını istəyib. Ögey anası dağın ətəyində, Həzrət Baba isə dağın zirvəsində dua edir. Deyilənlərə görə, Həzrət Baba dağın zirvəsində qeyb olub.

# İTMİŞDİR

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən Qəbələ rayon Aydınqışlaq kənd sakini **Qarayev Ruslan Musavər oğluna** məxsus reyestr nömrəsi: 406013023568, seriya RX 0773952 nömrəli **çıxarış** və reyestr nömrəsi 406013023568, seriya AN 029549 olan **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Tüntül kənd sakini Abdullayev İlqar Bayram oğluna məxsus, "B" dərəcəli, 1000029 nömrəli **sürücülük vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən Qəbələ rayon Həmzəli kənd sakini **Səmədova Kəmalə Səlim qızına** məxsus, reyestr nömrəsi 406013059367-10301 olan fərdi yaşayış evinin **Texniki Pasportu** itdiyi üçün etibarsız sayılır.

# Atletika idman növü üzrə kütləvi idman yarışı

Qəbələ Rayon İcra Hakimiyyəti və rayon gənclər və idman idarəsinin təşkilatçılığı, rayon təhsil sektorunun iştirakı ilə şəhər 3 saylı tam orta məktəbdə yeniyetmələr arasında "Narkomaniyaya yox deyək" devizi altında atletika idman növü üzrə kütləvi idman yarışı keçirilmişdir. Açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək yarışın məqsəd və vəzifələri haqqında məlumat vermiş, zərərli vərdişlərin mənfi fəsadları, onun həyatımıza və sağlamlığımıza təhlükə, mənəviyyatımıza və əqidəmizə zidd bir həyat tərzi olması barədə danışmış, idmançılara uğurlar arzulamışdır. Rayonun ümumtəhsil məktəblərindən 70-dək yeniyetmənin iştirak etdiyi yarışlarda 100 m. məsafəyə qaçışda oğlanlar arasında Camil Sultanov, qızlar arsında Gülmayə Ağayeva I yerə, topatmada qızlar arasında Rəsmiyə Qazıyeva, turnikdə dartınmada isə oğlanlar arasında Cəsur İsmayılov I yerə layiq görülmüşdür. Qaliblərə Gənclər və İdman idarəsinin diplomları təqdim edilmişdir.



# ALLAH RƏHMƏT ELƏSİN!

"Qəbələ" qəzetinin kollektivi qəzetin redaktoru **Azad Məmmədova** yaxın qohumu

**MƏTANƏTİN**

vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

"Qəbələ" qəzetinin kollektivi Qəbələ şəhər sakini **Sevil Talıbovaya** oğlu

**MÜZƏFFƏRİN**

vaxtsız vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir və kədərləndiyini bildirir.

Redaktor
Azad Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1300*